MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

QONAQPƏRVƏRLİKDƏ SOSİAL ÜNSİYYƏT MƏDƏNİYYƏTİ:
NƏZƏRİ ƏSASLAR, STRUKTUR KOMPONENTLƏRİ VƏ MÜASİR ÇAĞIRIŞLAR
Arzu Soltan (Həsənli) 96

RƏQS, OYUN VƏ ƏNƏNƏVİ İDMAN MƏDƏNİYYƏTİ ANLAYIŞI VƏ TARİXİ
Rauf Bəhmənli 110

MİLLİ ATÇILIQ MƏDƏNİYYƏTİ VƏ QARABAĞ ATÜSTÜ OYUNU – ÇÖVKƏN
Ramal Nadir 116

PƏHLƏVANLIQ – ƏNƏNƏVİ ZORXANA OYUNLARI VƏ İDMAN NÖVLƏRİ
Xəyyam Orucov 122

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLARDA TEKSTİL NÜMUNƏLƏRİ
Fariz Xəlilli 125

XALÇAÇILIĞIN TARİXİ, REGİONLARA GÖRƏ XALÇA MƏKTƏBLƏRİ,
XALÇANIN MƏİŞƏTDƏ VƏ MƏRASİMLƏRDƏ ROLU, QORUNMA VƏ
YAŞADILMA PROBLEMLƏRİ
Kübra Əliyeva 129

AZƏRBAYCAN KƏLAĞAYISI – MİLLİ KİMLİYİMİZİN İPƏK SİMVOLU VƏ
MƏDƏNİ İRSİMİZİN ZƏNGİN XƏZİNƏSİ
Sulidə Rüstəmova 155

KƏLAĞAYI SƏNƏTİNİN MİLLİ-MƏDƏNİ İDENTİKLİK KONSTEKTİNDƏ SEMİOTİK VƏ
ESTETİK TƏHLİLİ
Röya Talıblı 157

LAHICDA MİSGƏRLİK SƏNƏTİ HAQQINDA
Nəzər Əliyev 161

TƏZHİB SƏNƏTİNİN TARİXİ VƏ MAHİYYƏTİ
Şəhla Xəlilli 165

ŞƏRQİN İNCİSİ OLAN AZƏRBAYCAN MİNİATÜR SƏNƏTİNİN İNKİŞAF YOLU
Nərmin İmanova 169

AZƏRBAYCAN MİLLİ MƏTBƏXİNİN TƏHRİFSİZ ŞƏRHİ
Ceyran Əsgərova 175

XALQIMIZIN SÜFRƏ VƏ MƏTBƏX MƏDƏNİYYƏTİ
Kübra Əliyeva 190

TƏNDİRİN TARİXİ VƏ MƏDƏNİ ƏHƏMİYYƏTİ
Aida İsmayılova 194

ARXEOLOJİ TƏDQİQATLARDA MƏTBƏX, ÇÖRƏK VƏ YEMƏK MƏDƏNİYYƏTİ
Fariz Xəlilli 198

QONAQPƏRVƏRLİKDƏ SOSİAL ÜNSİYYƏT MƏDƏNİYYƏTİ: NƏZƏRİ ƏSASLAR, STRUKTUR KOMPONENTLƏRİ VƏ MÜASİR ÇAĞIRIŞLAR

Arzu Soltan (Həsənli)
"Azərbaycan məktəbi" jurnalı
https://doi.org/10.30546/19023.2026.1001.257

Giriş. Müasir cəmiyyətin sosial strukturu və funksionallığı fərdlər arasında qurulan ünsiyyətin keyfiyyəti ilə bilavasitə əlaqədardır. İnsanların qarşılıqlı əlaqə formaları təkcə fərdi münasibətlərin xarakterini müəyyən etmir, eyni zamanda bütövlükdə cəmiyyətin sosial-iqtisadi və mədəni inkişaf səviyyəsinin mühüm indikatorlarından biri kimi çıxış edir. Bu kontekstdə sosial ünsiyyət mədəniyyəti ictimai münasibətlərin tənzimlənməsində və sosial harmoniyanın təmin olunmasında fundamental rol oynayır.

Sosial ünsiyyət mədəniyyəti yalnız fərdi davranış modeli kimi deyil, həm də ailə, təhsil, dövlət, media və digər ictimai institutların effektiv fəaliyyətini təmin edən mühüm sosial mexanizm kimi qiymətləndirilir. Bu mədəniyyət çərçivəsində formalaşan kommunikativ normalar və etik prinsiplər fərdlərin sosial rollarını adekvat şəkildə yerinə yetirməsinə, qarşılıqlı gözləntiləri düzgün anlamasına və kollektiv fəaliyyətin səmərəli təşkilinə imkan yaradır. Nəticə etibarilə, ünsiyyət mədəniyyətinin səviyyəsi cəmiyyət daxilində etimadın, əməkdaşlığın və sosial kapitalın formalaşmasına birbaşa təsir göstərir [8].

Bununla yanaşı, müasir dövrdə qloballaşma proseslərinin sürətlənməsi və informasiya-kommunikasiya texnologiyalarının intensiv inkişafı sosial ünsiyyətin mahiyyətində və formalarında mühüm transformasiyalara səbəb olmuşdur. Rəqəmsal platformaların geniş yayılması, sosial şəbəkələrin gündəlik həyatın ayrılmaz komponentinə çevrilməsi və virtual kommunikasiya mühitlərinin inkişafı ünsiyyətin coğrafi və zaman məhdudiyyətlərini əhəmiyyətli dərəcədə aradan qaldırmışdır. Lakin bu dəyişikliklər eyni zamanda ünsiyyətin keyfiyyəti, etik normaların qorunması və emosional dərinliyin saxlanılması baxımından yeni çağırışlar yaratmışdır [18].

Xüsusilə rəqəmsal ünsiyyət mühitində qeyri-verbal komponentlərin məhdudluğu, anonimlik imkanlarının genişlənməsi və informasiyanın yüksək sürətlə yayılması sosial münasibətlərdə yanlış anlaşmaların, kommunikativ gərginliklərin və etik pozuntuların artmasına səbəb ola bilər. Bu isə sosial ünsiyyət mədəniyyətinin yalnız ənənəvi kontekstdə deyil, eyni zamanda rəqəmsal mühitdə də yenidən nəzərdən keçirilməsini və müasir tələblərə uyğun şəkildə adaptasiya olunmasını zəruri edir.

Digər tərəfdən, qloballaşmanın təsiri ilə müxtəlif mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin intensivləşməsi interkultural ünsiyyət bacarıqlarının əhəmiyyətini daha da artırmışdır. Fərqli dəyərlər sistemi, davranış modelləri və kommunikativ kodlar arasında tarazlığın qorunması sosial sabitliyin və qarşılıqlı anlaşmanın təmin olunması üçün vacib şərtlərdən biridir [9].

Beləliklə, sosial ünsiyyət mədəniyyəti müasir cəmiyyətin davamlı inkişafının əsas determinantlarından biri kimi çıxış edir. Bu sahənin elmi əsaslarla öyrənilməsi və praktik müstəvidə inkişaf etdirilməsi yalnız fərdi deyil, həm də ictimai və institusional səviyyədə strateji əhəmiyyət daşıyır. Sosial ünsiyyət mədəniyyətinin konkret və praktik təzahür formalarından biri olan qonaqpərvərlik institutu da məhz bu kontekstdə xüsusi diqqətə layiqdir.

1. Nəzəri çərçivə və elmi yanaşmalar. Sosial ünsiyyət mədəniyyətinin elmi şəkildə izahı müxtəlif nəzəri istiqamətlərin və metodoloji yanaşmaların sintezini tələb edir. Bu anlayış yalnız dil və nitq məsələsi deyil; o, sosial münasibətlərin qurulması, mənaların formalaşdırılması, davranış normalarının ötürülməsi və kollektiv həyatın tənzimlənməsi ilə bağlı kompleks prosesdir. Buna görə də sosial ünsiyyət mədəniyyəti sosial psixologiya, sosiologiya, kommunikasiya nəzəriyyəsi, mədəniyyətşünaslıq və pedaqogika kimi müxtəlif elm sahələrinin kəsişməsində öyrənilir.

Sosial ünsiyyətə dair nəzəri baxışlar göstərir ki, insanlar ünsiyyət zamanı yalnız məlumat mübadiləsi aparmır, həm də sosial reallıq yaradır, öz mövqelərini ifadə edir, mənsub olduqları qrupu və dəyərləri nümayiş etdirirlər. Bu səbəbdən ünsiyyət mədəniyyətini başa düşmək üçün onun arxasında duran nəzəri əsasların araşdırılması vacibdir.

1.1. Simvolik interaksionizm: Sosial ünsiyyət mədəniyyətinin izahında mühüm yer tutan nəzəri yanaşmalardan biri simvolik interaksionizmdir. Bu nəzəriyyəni Amerika alimləri Corc Mid və Herbert Blumer irəli sürüblər. Simvolik interaksionizmə görə, insanlar sosial həyatda davranışlarını obyektiv reallığa deyil, həmin reallığa verdikləri mənalara əsasən qururlar.

Bu yanaşma göstərir ki, ünsiyyət zamanı istifadə olunan sözlər, jestlər, mimikalar və digər simvollar insanlar üçün müxtəlif mənalar daşıyır. Məsələn, salamlaşmaq, təşəkkür etmək və ya susmaq kimi sadə davranışlar müxtəlif sosial kontekstlərdə fərqli şəkildə qəbul oluna bilər. Beləliklə, sosial ünsiyyət mədəniyyəti fərdlərin bu simvolları necə dərk etməsindən və onlara necə reaksiya verməsindən asılıdır.

Simvolik interaksionizmə əsasən, fərd cəmiyyətdə öz "mən" obrazını da başqalarının reaksiyası əsasında formalaşdırır. İnsan özünü başqalarının gözü ilə qiymətləndirir və sosial münasibətlərdə davranışını buna uyğun tənzimləyir. Bu baxımdan ünsiyyət mədəniyyəti fərdin sosial məliyinin və davranış modelinin formalaşmasında mühüm rol oynayır.

1.2. Sosial mübadilə nəzəriyyəsi. Sosial ünsiyyətin izahında geniş istifadə olunan digər nəzəri istiqamət sosial mübadilə nəzəriyyəsidir. Bu yanaşmanın əsas nümayəndələri sırasında amerikalı sosioloqlar Corc Homans və Peter Blau yer alır [2; 11]. Nəzəriyyəyə görə, insanlararası münasibətlər qarşılıqlı fayda, gözlənti və mükafat prinsipi üzərində qurulur.

Bu baxışa əsasən, insanlar ünsiyyət prosesinə daxil olarkən müəyyən mənəvi və ya praktiki nəticələr gözləyirlər. Hörmət, diqqət, dəstək, etimad və sosial qəbul kimi amillər münasibətlərin davamlılığını təmin edən "sosial mükafatlar" hesab olunur. Əgər ünsiyyət zamanı tərəflərdən biri özünü dəyərsiz, diqqətsiz və ya təhqir olunmuş hiss edirsə, həmin münasibətin pozulma ehtimalı artır.

Sosial mübadilə nəzəriyyəsi sosial ünsiyyət mədəniyyətinin niyə qarşılıqlı hörmət və etik davranış prinsipləri üzərində qurulmalı olduğunu izah edir. İnsanlar münasibətlərdə balans və ədalət hissini qorumağa çalışırlar. Bu balans pozulduqda isə konflikt, uzaqlaşma və etimadsızlıq yaranır.

1.3. Konstruktivist yanaşma. Konstruktivist yanaşma sosial ünsiyyəti reallığın və mənaların birlikdə yaradılması prosesi kimi qiymətləndirir. Bu nəzəriyyəyə görə, insanlar obyektiv həqiqəti olduğu kimi qəbul etmir, onu öz təcrübələri, dəyərləri və sosial mühiti əsasında formalaşdırırlar. Bu yanaşma amerikalı tədqiqatçı Cesse Delia ilə assosiasiya olunur [20].

Konstruktivist baxış ünsiyyət zamanı eyni hadisənin fərqli insanlar tərəfindən müxtəlif cür şərh olunma ehtimalını izah edir. Məsələn, bir fikir bir şəxs üçün açıq və səmimi görünə bilər, digər bir şəxs isə onu kobudluq və ya təhqir hesab edə bilər. Bu fərq insanların fərqli sosial təcrübələrə

və mədəni kodlara malik olmasından irəli gəlir.

Beləliklə, sosial ünsiyyət mədəniyyəti yalnız düzgün danışmaq bacarığı deyil, həm də qarşı tərəfin dünyagörüşünü, emosional vəziyyətini və mədəni xüsusiyyətlərini nəzərə almaq bacarığıdır. Konstruktivist yanaşma xüsusilə multikultural və qlobal cəmiyyətlərdə ünsiyyət problemlərinin təhlili üçün mühüm nəzəri baza yaradır.

1.4. Kommunikativ fəaliyyət nəzəriyyəsi. Sosial ünsiyyət mədəniyyətinin nəzəri əsaslarından biri də kommunikativ fəaliyyət nəzəriyyəsidir. Bu yanaşma əsasən məhşur alman filosofu Jürgen Habermas tərəfindən işlənib hazırlanıb. Habermasa görə, cəmiyyətin sağlam inkişafı üçün insanlar arasında rasional, açıq və bərabərhüquqlu dialoq mövcud olmalıdır [8].

Kommunikativ fəaliyyət nəzəriyyəsində ünsiyyətin əsas məqsədi yalnız məlumat ötürmək deyil, qarşılıqlı anlaşmaya nail olmaqdır. İnsanlar fikir mübadiləsi apararkən manipulyasiya, təzyiq və ya dominantlıqdan deyil, arqumentlərin gücündən istifadə etməlidirlər. Bu isə sosial ünsiyyət mədəniyyətində dürüstlük, şəffaflıq və etik məsuliyyətin vacibliyini ön plana çıxarır.

Habermasın yanaşması müasir demokratik cəmiyyətlərdə xüsusilə aktualdır. Çünki ictimai dialoq, vətəndaş iştirakçılığı və sosial əməkdaşlıq məhz yüksək ünsiyyət mədəniyyəti üzərində qurulur [8].

1.5. Mədəniyyətlərarası kommunikasiya nəzəriyyəsi. Qloballaşma şəraitində müxtəlif xalqlar, dillər və mədəniyyətlər arasında əlaqələrin artması sosial ünsiyyətin yeni ölçüsünü - mədəniyyətlərarası kommunikasiya məsələsini ön plana çıxarıb. Bu istiqamətdə mühüm nəzəri yanaşmalardan biri Edvard T. Holl tərəfindən irəli sürülüb. O, amerikalı antropoloq və mədəniyyətlərarası ünsiyyət sahəsinin banisi sayılan nüfuzlu tədqiqatçıdır [9].

Holl göstərirdi ki, müxtəlif mədəniyyətlər informasiyanı fərqli üsullarla qəbul edir və ifadə edirlər. O, mədəniyyətləri "yüksək kontekstli" və "aşağı kontekstli" olmaqla iki qrupa ayırır. Yüksək kontekstli cəmiyyətlərdə informasiyanın böyük hissəsi dolayı yollarla, jestlər və münasibətlər vasitəsilə çatdırılır. Aşağı kontekstli cəmiyyətlərdə isə fikir açıq və birbaşa ifadə olunur [9].

Bu fərqlər nəzərə alınmadıqda, insanlar arasında ciddi anlaşılmazlıqlar yarana bilər. Məsələn, birbaşa danışıq bəzi cəmiyyətlərdə səmimiyyət kimi qiymətləndirildiyi halda, başqa bir cəmiyyətdə kobudluq kimi qəbul oluna bilər. Buna görə də müasir sosial ünsiyyət mədəniyyəti interkultural həssaslıq və tolerantlıq tələb edir.

Nəzəri yanaşmaların ümumi əhəmiyyəti. Sadalanan nəzəri yanaşmalar sosial ünsiyyət mədəniyyətinin müxtəlif tərəflərini izah etsə də, onların hamısını birləşdirən ümumi cəhət ondan ibarətdir ki, ünsiyyət sadəcə informasiya mübadiləsi deyil. O, insanların sosial münasibətlər qurduğu, özünüifadə etdiyi, dəyərlərini bölüşdüyü və cəmiyyətlə inteqrasiya olunduğu mürəkkəb prosesdir.

Bu səbəbdən sosial ünsiyyət mədəniyyətinin öyrənilməsi həm nəzəri, həm də praktik baxımdan xüsusi əhəmiyyət daşıyır. Müasir dövrdə effektiv ünsiyyət bacarığı yalnız şəxsi uğurun deyil, həm də ictimai sabitliyin və sosial inkişafın əsas şərtlərindən biri hesab olunur.

2. Sosial ünsiyyətin struktur komponentləri. Sosial ünsiyyət mədəniyyətinin daxili strukturunun sistemli şəkildə təhlili onun dərk olunmasında xüsusi əhəmiyyət kəsb edir. Ünsiyyət prosesi çoxkomponentli və çoxsəviyyəli xarakter daşıyır; o, yalnız dil vasitəsilə informasiyanın ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda psixoloji, sosial və mədəni elementlərin qarşılıqlı təsiri əsasında formalaşır. Cesse Delianın konstruktivist yanaşmasında

qeyd olunduğu kimi, ünsiyyət tərəflərin bir-biri haqqındakı koqnitiv təsəvvürləri əsasında mənanın birgə yaradılması prosesidir [20]. Bu baxımdan sosial ünsiyyət mədəniyyəti bir-biri ilə qarşılıqlı əlaqədə olan bir neçə əsas komponentdən ibarətdir.

Bu komponentlərin hər biri ünsiyyətin effektivliyinə, qarşılıqlı anlaşmanın dərinliyinə və sosial münasibətlərin keyfiyyətinə birbaşa təsir göstərir. Bu baxımdan sosial ünsiyyət mədəniyyəti, Littlcon və Foss tərəfindən qeyd olunan kommunikativ kompetensiya prinsiplərinə uyğun olaraq, bir-biri ilə qarşılıqlı əlaqədə olan bir neçə əsas komponentdən ibarətdir [13].

2.1. Verbal ünsiyyət və diskursiv kompetensiya. Verbal ünsiyyət dil vasitəsilə həyata keçirilən kommunikasiya formasıdır və sosial ünsiyyətin ən əsas komponentlərindən biridir. Burada yalnız sözlərin seçimi deyil, həm də nitqin strukturu, məntiqiliyi, ardıcıllığı və kontekstə uyğunluğu mühüm rol oynayır.

Diskursiv kompetensiya isə fərdin müxtəlif sosial situasiyalarda uyğun ünsiyyət üslubu seçmək bacarığını ifadə edir. Məsələn, akademik mühitdə istifadə olunan terminologiya ilə gündəlik ünsiyyət dili arasında ciddi fərqlər var. Effektiv ünsiyyət qura bilən fərd bu fərqləri düzgün dərk edir və situasiyaya uyğun dil modeli seçir.

Bundan əlavə, verbal ünsiyyətdə aşağıdakı elementlər xüsusi əhəmiyyət kəsb edir:

- nitqin aydın və anlaşıqlı olması;
- etik və nəzakətli ifadə formalarından istifadə;
- arqumentlərin məntiqi əsaslandırılması;
- qarşı tərəfin səviyyəsinə və kontekstə uyğun danışıq.

Bu xüsusiyyətlər ünsiyyətin yalnız informativ deyil, həm də sosial baxımdan uğurlu olmasını təmin edir.

2.2. Qeyri-verbal ünsiyyət və paralingvistik vasitələr. Qeyri-verbal ünsiyyət sözlərdən kənar bütün kommunikativ vasitələri əhatə edir. Buraya mimika, jestlər, bədən dili, baxışlar, fiziki məsafə (proksemika) və səs tonu (paralingvistik elementlər) daxildir.

Elmi tədqiqatlar göstərir ki, ünsiyyət zamanı ötürülən informasiyanın əhəmiyyətli hissəsi məhz qeyri-verbal vasitələrlə çatdırılır. Kaliforniya Universitetinin (UCLA) psixologiya professoru Albert Mehrabianın 1971-ci ildə işıq üzü görən "Silent Messages" (“Səssiz mesajlar”) kitabında qeyd olunur ki, bu nisbət bəi hallarda 55 faizə çatır [19]. Bu səbəbdən verbal mesajın düzgün başa düşülməsi çox vaxt qeyri-verbal siqnalların interpretasiyasından asılı olur. Məsələn:

- eyni söz fərqli intonasiya ilə tamam fərqli məna verə bilər;
- göz kontaktı etimad və diqqət göstəricisi kimi çıxış edə bilər;
- bədən dili insanın emosional vəziyyəti haqqında əlavə məlumat verir.

Qeyri-verbal ünsiyyətin xüsusiyyətlərindən biri də onun mədəni kontekstdən asılı olmasıdır. Müxtəlif mədəniyyətlərdə eyni jest və ya davranış fərqli mənalar ifadə edə bilər. Bu isə xüsusilə multikultural mühitdə ünsiyyət zamanı diqqətli olmağı tələb edir.

2.3. Dinləmə mədəniyyəti və əks-əlaqə mexanizmləri. Sosial ünsiyyətin effektivliyi yalnız danışmaq bacarığından deyil, eyni zamanda dinləmə mədəniyyətindən də asılıdır. Dinləmə passiv proses deyil; o, aktiv iştirak, diqqət və analitik yanaşma tələb edir. Aktiv dinləmə aşağıdakı elementləri özündə birləşdirir:

- qarşı tərəfin sözünü kəsməmək;
- diqqətli və maraqlı dinləmə;
- başa düşüləni təsdiqləmək və ya dəqiqləşdirmək;

- uyğun əks-əlaqə qurmaq.

Əks-əlaqə (feedback) ünsiyyət prosesinin ayrılmaz hissəsidir. O, mesajın düzgün qavranılıb-qavranılmadığının müəyyən edilməsinə imkan verir və kommunikasiya prosesini tənzimləyir. Effektiv əks-əlaqə:

- konstruktiv və obyektiv olmalıdır;
- şəxsi hücum xarakteri daşımamalıdır;
- inkişaf yönümlü olmalıdır.

Dinləmə mədəniyyətinin zəif olması çox vaxt konfliktlərin yaranmasına və yanlış anlaşılmalara səbəb olur.

2.4. Empatiya və emosional intellekt. Empatiya sosial ünsiyyətin psixoloji əsasını təşkil edən əsas komponentlərdən biridir. O, fərdin qarşı tərəfin hisslərini anlamaq, onun emosional vəziyyətini düzgün qiymətləndirmək və buna uyğun davranmaq bacarığını ifadə edir. Empatiya ilə sıx bağlı olan emosional intellekt isə daha geniş anlayışdır və aşağıdakı bacarıqları əhatə edir:

- öz emosiyalarını tanımaq və idarə etmək;
- başqalarının emosiyalarını anlamaq;
- emosional reaksiyaları tənzimləmək;
- sosial münasibətləri effektiv idarə etmək.

Yüksək emosional intellektə malik fərdlər:

- konfliktləri daha asan həll edir;
- sosial münasibətlərdə daha uğurlu olur;
- qarşılıqlı anlaşmanı daha tez təmin edir.

Bu komponent sosial ünsiyyət mədəniyyətinin keyfiyyətini müəyyən edən əsas faktorlardan biri hesab olunur.

2.5. Sosial kontekst və situativ uyğunlaşma. Ünsiyyət heç vaxt boşluqda baş vermir. O, konkret sosial və mədəni kontekst daxilində formalaşır. Bu səbəbdən sosial ünsiyyət mədəniyyətinin mühüm komponentlərindən biri də situativ uyğunlaşma qabiliyyətidir. Fərd müxtəlif sosial rollara uyğun olaraq davranışını dəyişə bilməlidir:

- rəsmi və qeyri-rəsmi mühitlərdə fərqli ünsiyyət üslubu;
- yaş, status və sosial mövqeyə uyğun davranış;
- mədəni fərqlilikləri nəzərə alma.

Situativ uyğunlaşma bacarığı ünsiyyətin effektivliyini artırır və sosial konfliktlərin qarşısını alır.

Ümumi qiymətləndirmə. Sosial ünsiyyətin struktur komponentləri bir-biri ilə sıx bağlı olan kompleks sistem təşkil edir. Verbal və qeyri-verbal vasitələr, dinləmə bacarıqları, empatiya və sosial kontekstin düzgün dərk edilməsi birlikdə effektiv ünsiyyət mühiti yaradır.

Bu komponentlərdən hər hansı birinin zəif inkişafı ünsiyyət prosesində problemlərə, yanlış anlaşmalara və sosial münasibətlərin pozulmasına səbəb ola bilər. Buna görə də sosial ünsiyyət mədəniyyətinin inkişafı kompleks yanaşma tələb edir və həm nəzəri biliklərin, həm də praktik bacarıqların inteqrasiyasını zəruri edir.

3. Sosial ünsiyyət mədəniyyətinin funksiyaları. Sosial ünsiyyət mədəniyyəti yalnız fərdlərarası münasibətlərin formalaşmasını təmin edən vasitə deyil, eyni zamanda cəmiyyətin

ümumi fəaliyyət mexanizmini tənzimləyən çoxfunksiyalı sosial institut kimi çıxış edir. Onun yerinə yetirdiyi funksiyalar sosial sistemin sabitliyini qorumaq, fərdlər arasında qarşılıqlı anlaşmanı təmin etmək və kollektiv fəaliyyətin səmərəliliyini artırmaq baxımından xüsusi əhəmiyyət kəsb edir. Habermas hesab edir ki, cəmiyyəti məhz "anlaşma yönümlü ünsiyyət" möhkəmləndirir [8].

Bu funksiyalar bir-biri ilə qarşılıqlı əlaqədə olub, sosial həyatın müxtəlif səviyyələrində – fərdi, qrup və institusional müstəvidə özünü göstərir.

3.1. Tənzimləyici (normativ) funksiya. Sosial ünsiyyət mədəniyyətinin əsas funksiyalarından biri sosial davranışın tənzimlənməsidir. Bu funksiya vasitəsilə cəmiyyətdə qəbul olunmuş etik normalar, davranış qaydaları və kommunikativ standartlar formalaşır və qorunur.

Ünsiyyət zamanı istifadə olunan nəzakətli ifadələr, etik çərçivələr və sosial məsuliyyət prinsipləri fərdlərin davranışını müəyyən edir və sosial münasibətlərin stabil qalmasına xidmət edir. Məsələn, hörmətli müraciət formaları, dialoq zamanı qarşı tərəfi dinləmək və etik çərçivədən kənara çıxmamaq kimi davranışlar bu funksiyanın təzahürüdür.

Bu funksiya olmadan sosial münasibətlərdə xaos, anlaşılmazlıq və konfliktlərin artması qaçılmaz olardı.

3.2. Kommunikativ (informativ) funksiya. Sosial ünsiyyət mədəniyyətinin ən fundamental funksiyalarından biri informasiya mübadiləsini təmin etməkdir. İnsanlar ünsiyyət vasitəsilə biliklərini, fikirlərini, təcrübələrini və emosiyalarını bir-birinə ötürürlər.

Lakin burada əsas məqam yalnız informasiyanın ötürülməsi deyil, onun düzgün və adekvat şəkildə qavranılmasıdır. Ünsiyyət mədəniyyəti informasiyanın:

- aydın və sistemli şəkildə təqdim olunmasını;
- kontekstə uyğun çatdırılmasını;

yanlış interpretasiyaların qarşısının alınmasını təmin edir.

Effektiv kommunikasiya olmadan nə fərdi münasibətlər, nə də ictimai fəaliyyət uğurla həyata keçirilə bilər.

3.3. İnteqrativ funksiya. Sosial ünsiyyət mədəniyyəti fərdləri və sosial qrupları birləşdirən əsas mexanizmlərdən biridir. Bu funksiya vasitəsilə insanlar arasında ortaq dəyərlər, normalar və davranış modelləri formalaşır. İnteqrativ funksiya:

- sosial birlik və həmrəylik yaradır;
- kollektiv identiklik hissini gücləndirir;
- fərdlərin cəmiyyətə aidiyyət hissini artırır.

Məsələn, milli və mədəni ənənələr, ümumi ünsiyyət qaydaları və sosial ritual cəmiyyət üzvlərini bir araya gətirən mühüm vasitələrdir.

3.4. Sosiallaşma funksiyası. Sosial ünsiyyət mədəniyyəti fərdin cəmiyyətə uyğunlaşmasında mühüm rol oynayır. Sosiallaşma prosesi zamanı fərd cəmiyyətin qəbul etdiyi dəyərləri, normaları və davranış qaydalarını mənimsəyir. Bu proses əsasən aşağıdakı mühitlərdə baş verir:

- ailə;
- təhsil müəssisələri;
- sosial qruplar və kollektivlər;
- media və rəqəmsal platformalar.

Ünsiyyət vasitəsilə fərd:

- sosial rolları öyrənir;
- davranış modellərini formalaşdırır;
- cəmiyyətin üzvü kimi öz yerini müəyyən edir.

Beləliklə, sosial ünsiyyət mədəniyyəti fərdin sosial identikliyinin formalaşmasında əsas rol oynayır.

3.5. Tənzimləyici-psixoloji funksiya. Sosial ünsiyyət yalnız informasiya mübadiləsi deyil, həm də emosional və psixoloji balansın qorunması vasitəsidir. İnsanlar ünsiyyət zamanı öz hisslərini ifadə edir, dəstək alır və sosial münasibətlər vasitəsilə psixoloji rahatlıq əldə edirlər. Bu funksiya aşağıdakı aspektləri əhatə edir:

- emosional gərginliyin azaldılması;
- sosial dəstək mexanizmlərinin formalaşması;
- qarşılıqlı anlayış və empatiyanın inkişafı.

Məsələn, çətin vəziyyətdə olan bir insanla qurulan empatik ünsiyyət onun psixoloji vəziyyətinə müsbət təsir göstərə bilər.

3.6. Konfliktlərin tənzimlənməsi funksiyası. Sosial ünsiyyət mədəniyyəti konfliktlərin yaranmasının qarşısını almaq və mövcud konfliktləri konstruktiv şəkildə həll etmək baxımından mühüm rol oynayır. Yüksək ünsiyyət mədəniyyətinə malik fərdlər:

- emosiyalarını idarə edə bilir;
- qarşı tərəfi dinləməyi bacarır;
- kompromis yollarını axtarır;
- aqressiv davranışlardan çəkinir.

Bu isə sosial münasibətlərdə gərginliyin azalmasına və əməkdaşlıq mühitinin formalaşmasına şərait yaradır.

Beləliklə, sosial ünsiyyət mədəniyyəti çoxşaxəli funksiyalar yerinə yetirərək cəmiyyətin sabitliyini və inkişafını təmin edən əsas mexanizmlərdən biri kimi çıxış edir. Onun tənzimləyici, kommunikativ, inteqrativ və sosiallaşma funksiyaları sosial sistemin bütün səviyyələrində özünü göstərir.

Bu funksiyaların effektiv şəkildə reallaşması cəmiyyətdə sağlam ünsiyyət mühitinin formalaşmasına, qarşılıqlı etimadın güclənməsinə və sosial münasibətlərin ahəngdar inkişafına şərait yaradır.

4. Müasir dövrdə sosial ünsiyyət mədəniyyətinin transformasiyası. Müasir dövrdə sosial ünsiyyət mədəniyyəti dərin və çoxşaxəli transformasiya prosesindən keçir. Bu dəyişikliklər əsasən qloballaşma, urbanizasiya və xüsusilə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə şərtlənir. Ənənəvi ünsiyyət formaları ilə müqayisədə müasir kommunikasiya daha dinamik, çoxkanallı və texnologiya vasitəli xarakter almışdır [3]. Bu isə sosial münasibətlərin strukturuna, ünsiyyətin məzmununa və etik normaların tətbiqinə yeni yanaşmalar tələb edir.

DeVito vurğulayır ki, virtual mühitdə ünsiyyət mədəniyyəti yeni etik normaların (netiket) formalaşmasını və texnoloji vasitələrdən istifadə zamanı sosial məsuliyyətin artırılmasını zəruri edir [4].

4.1. Rəqəmsallaşma və kommunikasiya mühitinin dəyişməsi. Rəqəmsal texnologiyaların

inkişafı sosial ünsiyyətin formasını köklü şəkildə dəyişib. Sosial şəbəkələr, mesajlaşma tətbiqləri və onlayn platformalar ünsiyyəti daha sürətli, əlçatan və qlobal edib. Artıq insanlar fiziki məkan və zaman məhdudiyyətlərindən asılı olmadan istənilən nöqtədən qarşılıqlı əlaqə qura bilirlər. Lakin bu transformasiya bir sıra yeni problemlər də yaradıb:

- ünsiyyətin səthiləşməsi və qısalması;
- emosional ifadə imkanlarının məhdudlaşması;
- yazılı mesajların yanlış interpretasiyası.

Qeyri-verbal elementlərin (mimika, jest, intonasiya) rəqəmsal mühitdə tam ötürülməməsi kommunikasiya zamanı anlaşılmazlıqların artmasına səbəb olur. Bu baxımdan rəqəmsal ünsiyyət mədəniyyəti ayrıca kompetensiya kimi formalaşmaqdadır.

4.2. "Sürətli ünsiyyət" və diqqət iqtisadiyyatı. Müasir kommunikasiya mühiti "sürətli ünsiyyət" fenomeni ilə xarakterizə olunur. Qısa mesajlar, ani reaksiyalar və davamlı informasiya axını insanların ünsiyyət davranışına birbaşa təsir edir. Bu şəraitdə:

- dərin və analitik ünsiyyət zəifləyir;
- diqqət müddəti qısalır;
- səthi və emosional reaksiyalar artır.

"Diqqət iqtisadiyyatı" anlayışı da burada mühüm rol oynayır. İnsanların diqqəti məhdud resursa çevrildiyi üçün kommunikasiya daha çox diqqət cəlb etməyə yönəlir, bu isə bəzən keyfiyyətin azalmasına səbəb olur.

4.3. Anonimlik və etik davranış problemləri. Rəqəmsal mühitin əsas xüsusiyyətlərindən biri anonimlik imkanının mövcudluğudur. Bu isə bəzi hallarda sosial məsuliyyət hissinin zəifləməsinə və qeyri-etik davranışların artmasına gətirib çıxarır. Bu kontekstdə aşağıdakı problemlər müşahidə olunur:

- aqressiv və təhqiredici ünsiyyət (online hostility);
- dezinformasiya və manipulyasiya;
- sosial məsuliyyətin azalması.

Anonimlik fərdlərə öz real sosial mənliklərindən fərqli davranmaq imkanı verir. Bu isə sosial ünsiyyət mədəniyyətinin ənənəvi etik çərçivələrinin pozulmasına səbəb ola bilər.

4.4. Multikultural mühit və interkultural kommunikasiya. Qloballaşma nəticəsində müxtəlif mədəniyyətlər arasında qarşılıqlı əlaqələr intensivləşib. Bu proses sosial ünsiyyət mədəniyyətinə yeni tələblər irəli sürür. Artıq fərdlər yalnız öz mədəni çərçivələrində deyil, fərqli mədəniyyətlərə məxsus insanlarla da effektiv ünsiyyət qurmalı olurlar. Bu şəraitdə aşağıdakı bacarıqlar ön plana çıxır:

- mədəni həssaslıq və tolerantlıq;
- fərqli kommunikativ kodların anlaşılması;
- stereotiplərdən uzaq düşüncə.

Multikultural mühitdə ünsiyyət zamanı yanlış anlaşmaların əsas səbəbi çox vaxt mədəni fərqliliklərin nəzərə alınmamasıdır. Buna görə də müasir ünsiyyət mədəniyyəti interkultural kompetensiyanı vacib element kimi qəbul edir.

4.5. Rəqəmsal identiklik və özünüifadə. Müasir dövrdə fərdlər yalnız real həyatda deyil, həm də virtual mühitdə öz sosial identikliklərini formalaşdırırlar. Sosial şəbəkələrdə təqdim olunan "rəqəmsal mən" bəzən real şəxsiyyətlə tam üst-üstə düşmür. Bu fenomen aşağıdakı nəticələrə gətirib çıxarır:

- idealizə olunmuş özünüifadə formaları;
- sosial müqayisənin artması;
- ünsiyyətdə autentikliyin azalması.

Rəqəmsal identiklik problemi sosial ünsiyyət mədəniyyətinə yeni etik və psixoloji ölçülər əlavə edir.

4.6. İnformasiya yüklənməsi və kommunikasiya keyfiyyəti. Müasir informasiya cəmiyyətində fərdlər gündəlik olaraq böyük həcmdə informasiya ilə qarşılaşırlar. Bu "informasiya yüklənməsi" fenomeni ünsiyyətin keyfiyyətinə mənfi təsir göstərə bilər. Əsas təsirlər:

- diqqət dağınıqlığı;
- selektiv qavrayışın artması;
- dərin ünsiyyətin azalması.

Bu şəraitdə effektiv ünsiyyət üçün informasiyanın strukturlaşdırılması və prioritetləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Beləliklə, müasir dövrdə sosial ünsiyyət mədəniyyəti texnoloji, sosial və mədəni dəyişikliklərin təsiri altında transformasiya olunur. Rəqəmsallaşma ünsiyyət imkanlarını genişləndirsə də, onun keyfiyyətinə və etik əsaslarına yeni çağırışlar yaradır.

Bu səbəbdən müasir ünsiyyət mədəniyyəti yalnız ənənəvi bacarıqlarla məhdudlaşmamalı, həm də rəqəmsal savadlılıq, interkultural kompetensiya və etik məsuliyyət kimi yeni elementləri özündə birləşdirməlidir.

5. Sosial ünsiyyət mədəniyyətinin inkişaf strategiyaları. Sosial ünsiyyət mədəniyyətinin formalaşdırılması və inkişaf etdirilməsi kompleks və çoxsəviyyəli yanaşma tələb edən prosesdir. Bu proses yalnız fərdi səviyyədə kommunikativ bacarıqların təkmilləşdirilməsi ilə məhdudlaşmır, eyni zamanda sosial institutların, təhsil sisteminin, ailə mühitinin və media məkanının koordinasiyalı fəaliyyətini zəruri edir. Müasir dövrdə ünsiyyət mədəniyyətinin inkişafı həm ənənəvi sosial dəyərlərin qorunmasını, həm də yeni kommunikativ reallıqlara uyğunlaşmanı tələb edir.

Fərdi səviyyədə inkişaf strategiyasının əsasını Daniel Qolemanın vurğuladığı emosional intellekt (EQ) təşkil edir. Öz hisslərini idarə edə bilən və qarşı tərəfə empatiya ilə yanaşan fərd daha effektiv sosial ünsiyyət qurmağa qadirdir [6]. Sosial münasibətlərdə gərginliyi azaltmaq üçün Marşal Rozenberqin "Şiddətsiz ünsiyyət" modeli mühüm inkişaf strategiyası kimi çıxış edir [15]. Bu model ehtiyacların səmimi şəkildə ifadə olunmasına və qarşılıqlı anlaşmaya əsaslanır.

5.1. Təhsil sisteminin rolu. Təhsil sosial ünsiyyət mədəniyyətinin formalaşmasında əsas institusional mexanizmlərdən biridir. Məktəb və ali təhsil müəssisələri yalnız bilik ötürən strukturlar deyil, həm də kommunikativ bacarıqların, etik davranış normalarının və sosial məsuliyyət hissinin inkişaf etdirildiyi mühitdir. Bu istiqamətdə aşağıdakı tədbirlər xüsusi əhəmiyyət kəsb edir:

- kommunikasiya və nitq mədəniyyəti üzrə xüsusi fənlərin tədrisi;
- debat, diskussiya və təqdimat bacarıqlarının inkişafı;
- tənqidi düşüncə və arqumentasiya qabiliyyətinin formalaşdırılması;
- emosional intellekt və empatiyanın inkişafına yönəlmiş təlimlər.

Təhsil mühitində yaradılan açıq və inklüziv kommunikasiya atmosferi tələbələrin sosial

ünsiyyət mədəniyyətinin inkişafına birbaşa təsir göstərir.

Təhsil sistemi fərdlərə dil qaydaları ilə yanaşı, Stefen Littlcon və Karen Fossun qeyd etdiyi kimi müxtəlif sosial kontekstlərdə uyğun davranmaq bacarığını (kommunikativ kompetensiyanı) aşılamalıdır [13].

5.2. Ailə mühitinin təsiri. Ailə sosial ünsiyyət bacarıqlarının formalaşdığı ilk və ən mühüm sosial mühitdir. Uşaqlar ünsiyyət davranışlarını əsasən valideynlərin və ailə üzvlərinin nümunəsi əsasında mənimsəyirlər. Ailə daxilində:

- qarşılıqlı hörmət və anlayışın mövcudluğu;
- açıq və səmimi ünsiyyət mühiti;
- emosiyaların düzgün ifadəsi;
- konfliktlərin konstruktiv həlli

uşağın gələcək sosial münasibətlərinə və kommunikativ davranışına birbaşa təsir göstərir. Valideynlərin ünsiyyət üslubu uşağın sosiallaşma prosesində əsas model rolunu oynayır. Bu baxımdan ailə mühitində formalaşan ünsiyyət mədəniyyəti cəmiyyətin ümumi ünsiyyət səviyyəsinin əsasını təşkil edir.

5.3. Media və rəqəmsal mühitin rolu. Kütləvi informasiya vasitələri və rəqəmsal platformalar müasir dövrdə sosial ünsiyyət mədəniyyətinin formalaşmasına ciddi təsir göstərir. Media yalnız informasiya ötürən vasitə deyil, həm də davranış modellərini formalaşdıran güclü sosial təsir mexanizmidir. Bu sahədə əsas istiqamətlər:

- etik kommunikasiya standartlarının təşviqi;
- məsuliyyətli jurnalistika və düzgün dil istifadəsi;
- sosial şəbəkələrdə rəqəmsal etik qaydaların formalaşdırılması;
- nifrət nitqinin və dezinformasiyanın qarşısının alınması.

Rəqəmsal savadlılıq və eləcə də sosial media savadlılığı bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir. Fərdlər onlayn mühitdə davranışlarının sosial nəticələrini dərk etməli və etik normalara riayət etməlidirlər.

5.4. Fərdi inkişaf və özünütənzimləmə. Sosial ünsiyyət mədəniyyətinin inkişafı fərdin öz üzərində məqsədli şəkildə işləməsini də tələb edir. Fərdi səviyyədə kommunikativ bacarıqların inkişafı aşağıdakı istiqamətləri əhatə edir:

- aktiv dinləmə bacarığının inkişaf etdirilməsi;
- empatiyanın gücləndirilməsi;
- emosional intellektin artırılması;
- özünüifadə və nitq bacarıqlarının təkmilləşdirilməsi;
- konfliktlərin idarə olunması.

Reflektiv yanaşma - yəni fərdin öz davranışını analiz etməsi və qiymətləndirməsi - bu prosesdə mühüm rol oynayır. İnsan öz ünsiyyət tərzini dərk etdikcə və onu təkmilləşdirdikcə sosial münasibətlərdə daha uğurlu olur.

5.5. İnterkultural kompetensiyanın inkişafı. Qloballaşma şəraitində sosial ünsiyyət mədəniyyətinin inkişafı interkultural bacarıqların formalaşdırılmasını da zəruri edir. Müxtəlif mədəniyyətlərə mənsub insanlarla effektiv ünsiyyət qurmaq üçün aşağıdakı keyfiyyətlər vacibdir:

- mədəni fərqliliklərə hörmət;
- stereotiplərdən uzaq düşüncə;

- kommunikativ çeviklik;
- uyğunlaşma qabiliyyəti.

İnterkultural kompetensiya yalnız beynəlxalq münasibətlərdə deyil, multikultural cəmiyyətlər daxilində də sosial harmoniyanın təmin olunmasında mühüm rol oynayır.

5.6. Praktiki metodlar və tətbiqi yanaşmalar. Sosial ünsiyyət mədəniyyətinin inkişafı üçün nəzəri biliklərlə yanaşı, praktik metodların tətbiqi də vacibdir. Bu məqsədlə aşağıdakı yanaşmalar effektiv hesab olunur:

- rol oyunları və simulyasiyalar - real ünsiyyət situasiyalarının modelləşdirilməsi;
- case study təhlili - konkret problemlərin praktiki həlli;
- qrup müzakirələri və debatlar – kollektiv düşüncə və ünsiyyət bacarıqlarının inkişafı;
- təlim və treninqlər - kommunikativ kompetensiyaların sistemli şəkildə artırılması.

Bu metodlar fərdlərin real həyat situasiyalarında daha effektiv və adekvat ünsiyyət qurmasına imkan yaradır.

Beləliklə, sosial ünsiyyət mədəniyyətinin inkişafı çoxşaxəli və davamlı prosesdir. Bu prosesdə təhsil sistemi, ailə, media və fərdi səylər qarşılıqlı şəkildə fəaliyyət göstərməlidir. Müasir dövrdə bu inkişaf yalnız ənənəvi ünsiyyət bacarıqları ilə məhdudlaşmamalı, həm də rəqəmsal və interkultural kompetensiyaları əhatə etməlidir.

Sosial ünsiyyət mədəniyyətinin sistemli şəkildə inkişaf etdirilməsi cəmiyyətin ümumi rifahına, sosial sabitliyə və effektiv əməkdaşlıq mühitinin formalaşmasına mühüm töhfə verir.

6. Qonaqpərvərlik kontekstində sosial ünsiyyət mədəniyyəti. Qonaqpərvərlik sosial ünsiyyət mədəniyyətinin ən konkret və praktik təzahür formalarından biri kimi çıxış edir. Tarixən bir çox cəmiyyətlərdə, o cümlədən Azərbaycan mədəniyyətində qonaqpərvərlik yalnız etik davranış norması deyil, həm də sosial münasibətlərin tənzimlənməsində mühüm rol oynayan dəyər sistemi kimi formalaşıb. Bu baxımdan qonaqpərvərlik mühiti sosial ünsiyyətin həm formal, həm də qeyri-formal elementlərinin qarşılıqlı şəkildə reallaşdığı kompleks sosial situasiya yaradır.

Qonaq və ev sahibi arasında qurulan münasibətlər sosial rolların aydın şəkildə müəyyənləşdirildiyi kommunikativ modelə əsaslanır. Ev sahibi qonağa hörmət, diqqət və qayğı göstərməklə sosial məsuliyyətini yerinə yetirir, qonaq isə qarşılıqlı ehtiram, nəzakət və uyğun davranış nümayiş etdirməklə bu münasibətin balansını qoruyur. Bu qarşılıqlı əlaqə sosial ünsiyyət mədəniyyətinin əsas prinsiplərindən olan qarşılıqlı hörmət və etik uyğunluq üzərində qurulur.

Qonaqpərvərlik mühitində ünsiyyətin verbal və qeyri-verbal komponentləri xüsusi əhəmiyyət kəsb edir. Süfrə arxasında aparılan söhbətlər yalnız informasiya mübadiləsi deyil, həm də sosial yaxınlaşma, etimadın formalaşması və münasibətlərin möhkəmləndirilməsi funksiyasını yerinə yetirir. Eyni zamanda, jestlər, mimikalar, xidmət forması və davranış tərzi qonağa münasibətin səviyyəsini ifadə edən mühüm qeyri-verbal siqnallar kimi çıxış edir. Edvard T. Hollun nəzəriyyəsinə görə, Azərbaycan kimi "yüksək kontekstli" mədəniyyətlərdə qonaqpərvərlik zamanı jestlər və xidmət forması (qeyri-verbal siqnallar) bəzən deyilən sözlərdən daha dərin məna kəsb edir [9].

Bu kontekstdə dinləmə mədəniyyəti və empatiya xüsusilə ön plana çıxır. Ev sahibinin qonağın ehtiyaclarını hiss etməsi, onun rahatlığını təmin etməyə çalışması və diqqətli davranması yüksək sosial ünsiyyət mədəniyyətinin göstəricisi hesab olunur. Eyni zamanda qonağın da situasiyaya uyğun davranması, ev sahibinin qaydalarına hörmətlə yanaşması kommunikativ ahəngdarlığın qorunmasına xidmət edir. Ev sahibinin qonağın ehtiyaclarını nitqsiz qavraması

Daniel Qolemanın təsvir etdiyi emosional intellektin və empatiyanın praktik təzahürüdür [6].

Müasir dövrdə qonaqpərvərlik ənənələri müəyyən transformasiyaya uğrasa da, onun sosial ünsiyyət baxımından əhəmiyyəti dəyişməz qalır. Şəhər həyatının sürətlənməsi, fərdiləşmə meylləri və rəqəmsal ünsiyyətin artması ənənəvi qonaqpərvərlik formalarını qismən zəiflətsə də, bu mühit hələ də sosial əlaqələrin möhkəmləndirilməsi və fərdlərarası münasibətlərin inkişafı üçün mühüm platforma rolunu oynayır. Şerri Turkl texnologiyanın insanları bir-birindən uzaqlaşdırdığını iddia etsə də, qonaqpərvərlik mühiti hələ də rəqəmsal dünyanın soyuqluğuna qarşı "canlı ünsiyyət" platforması kimi qalmaqdadır [18].

Bundan əlavə, qonaqpərvərlik mühiti interkultural ünsiyyət baxımından da əhəmiyyətlidir. Fərqli mədəniyyətlərə mənsub qonaqların qəbul edilməsi zamanı kommunikativ çeviklik, mədəni həssaslıq və uyğunlaşma bacarıqları xüsusi önəm kəsb edir. Bu isə sosial ünsiyyət mədəniyyətinin qlobal kontekstdə tətbiqinin praktiki nümunəsi kimi qiymətləndirilə bilər.

Beləliklə, qonaqpərvərlik sosial ünsiyyət mədəniyyətinin yalnız nəzəri deyil, həm də praktik müstəvidə reallaşdığı mühüm sosial sahədir. Bu mühitdə formalaşan kommunikativ davranışlar cəmiyyətin ümumi mədəni səviyyəsini əks etdirir və sosial münasibətlərin keyfiyyətinə birbaşa təsir göstərir.

7. Beynəlxalq Mədəni İrs Ustad Məktəbi. "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin yuxarıda adı çəkilən layihəsi çərçivəsində "Qonaqpərvərlik, süfrə və sosial ünsiyyət mədəniyyəti" üzrə tematik qrupda təşkil olunmuş dərslərdə bu mövzulardan bəhs etdikdən sonra praktik metodlar və tətbiqi yanaşmalardan istifadə olundu.

Təlim iştirakçılarına yadlarında qalan ən yaxşı və ən pis qonaqlıqları xatırlamaq tapşırığı verildi. Fikrini bildirənlərin demək olar ki, hamısı iştirak etdikləri məclisin keyfiyyətini orada yaşadıqları ünsiyyət təcrübələri ilə əlaqələndirdilər. Məsələn, gənc oğlan atası ilə getdiyi məclisi xatırladı. Orada maraqlı söhbətlər eşitdiyini və atasının dostlarının övladları ilə xoş ünsiyyət qurduğunu dedi. Bir xanım isə dayısı qızının toyunda süfrədəki balığın iyini bəyənmədiyini, amma nə qədər desə də ofisiantın onu dəyişmədiyini qeyd etdi. Bu, Albert Mehrabianın nəzəriyyəsi ilə izah oluna bilər [19]. Xanım üçün sözlərdən daha çox, ofisiantın etinasızlığı (qeyri-verbal mesaj) və mühitin keyfiyyəti əsas olub. Başqa bir iştirakçı ən çox bəyəndiyi məclisdə qonaqların hər birinin istəyinin nəzərə alındığını, vaxtın necə keçdiyini bilmədiklərini dedi.

Yuxarıda qeyd etmişdik ki, multikultural mühitdə ünsiyyət zamanı yanlış anlaşmaların əsas səbəbi çox vaxt mədəni fərqliliklərin nəzərə alınmamasıdır. Dərslərdə iştirak edən universitet müəllimlərindən biri qeyd etdi ki, xaricdən gələn insanlar adətən bizim mətbəxi çox bəyənirlər. Amma bəzən süfrədə insanların nəsə yeməyə məcbur edilməsini mənfi hal kimi vurğuladı və hətta bununla bağlı xarici tələbələrin şikayət etdiyini də bildirdi. Bu, Edvard T. Hollun "mədəni toqquşma" (cultural clash) dediyi məqamdır [9]. Burada Azərbaycanın "yüksək kontekstli" israrlı qonaqpərvərliyi ilə Qərbin "aşağı kontekstli" fərdi azadlıq anlayışı arasında ziddiyyət yarandığını görürük.

Növbəti addımda iştirakçıların kommunikativ dəyərlərini filtrasiya etmək üçün "'Metaforik təsnifat" metodundan istifadə olundu. İştirakçılara kiçik yapışqanlı vərəqlər paylandı və onlara hər vərəq parçasına 1 söz olmaqla, qonaq qəbul etməyin müsbət və mənfi xüsusiyyətlərini əks etdirən 6 kəlmə yazmaq tapşırıldı. Sonra özləri ilə gələcəyə aparmaq istədikləri xüsusiyyətlər yazılmış vərəqləri lövhədə çəkilmiş çamadan, üzərində işləmək lazım gəldiyini düşündükləri xüsusiyyətlər yazılmış vərəqləri lövhədə çəkilmiş paltaryuyan və lazımsız hesab etdikləri xüsusiyyətlər yazılmış vərəqləri lövhədə çəkilmiş zibil qutusu şəkillərinin üzərinə yapışdırdılar.

Növbəti addımda bu xüsusiyyətləri birlikdə müzakirə edib nə üçün bu seçimi etdiklərini aydınlaşdırdıq. Daha çox kağız yapışdırılan hissə çamadan şəklinin üzəri oldu. İştirakçıların gələcəyə aparmaq istədikləri xüsusiyyətlər arasında "diqqət", "qayğı", "səxavət", "paylaşmaq", "mehribanlıq", "sosiallaşmaq" və s. kimi ünsiyyətə toxunan məsələlərlər çoxluq təşkil edirdi.

Paltaryuyan maşına "düşən" xüsusiyyətlər arasında "diqqətsizlik" var idi. İştirakçılar bu xüsusiyyəti izah edərkən süfrə başında diqqəti telefona yönəltməyin mənfi hal olduğunu vurğuladılar. Bunu Şerri Turklin "Alone Together" (Birlikdə Tənha) konsepsiyası ilə əlaqələndirmək olar [18]. Yəni insanlar fiziki olaraq bir yerdə olsalar da, rəqəmsal olaraq uzaqdadırlar.

İştirakçıların üzərində işləmək lazım gəldiyini düşündükləri xüsusiyyətlər müzakirə olunanada, eyni zamanda, qeyd olundu ki, süfrə ətrafında toplaşan insanlar arasında söhbətlər səmimi olmalı, reallıqdan uzaq danışıqlara, dedi-qoduya yer verilməməlidir.

Vegetarian, hansısa bir qidaya allergiyası olan və s. bu kimi qonaqların ehtiyaclarının nəzərə alınmasının vacibliyinə də toxunuldu.

Təlim iştirakçıları "israfçılıq"la yanaşı, "ucadan danışıb başqalarını narahat etmək", "atmaca atmaq", "etinasızlıq göstərmək" kimi məsələləri zibil qutusuna atmaq istədiklərini bildirdilər. Göründüyü kimi, bunların da əksəriyyəti ünsiyyətlə bağlı məsələlərdir.

İştirakçıların gələcəyə aparmaq istədikləri "diqqət" və "səxavət" kimi xüsusiyyətlər Marşal Rozenberqin "Şiddətsiz ünsiyyət" modelində vurğulanan empatiya və ehtiyacların qarşılanması prinsipi ilə birbaşa səsləşir [15]. Əksinə, zibil qutusuna atılan "atmaca atmaq" və "etinasızlıq" kimi davranışlar Sam Hornun "Sözlə döyüş sənəti" ("Tongue Fu") əsərində qeyd etdiyi verbal münaqişə yaradan və ünsiyyəti bloklayan neqativ elementlərdir [12].

Təlim çərçivəsində keçirilən rollu oyunlarda və səhnəciklərdə iştirakçılar Azərbaycan ailələrinin qonapərvərlik adətlərini əks etdirdilər. Qonağa diqqət və qayğı, ev sahibinə minnətdarlıq və hazırladığı yeməklərlə bağlı müsbət fikirlər söyləmək kimi ünsiyyət məsələləri burada da canlandırıldı. Rollu oyunlar vasitəsilə iştirakçılar Ervinq Qoffmanın qeyd etdiyi "təqdimat sənəti"ni icra edərək, ev sahibi və qonaq obrazlarında səmimi ünsiyyətin (autentikliyin) vacibliyini praktik şəkildə nümayiş etdirdilər [5].

Nəticə. Aparılan təhlillər göstərir ki, sosial ünsiyyət mədəniyyəti müasir cəmiyyətin funksional sabitliyini və davamlı inkişafını təmin edən fundamental sosial fenomenlərdən biridir. O, yalnız fərdlərarası münasibətlərin keyfiyyətini müəyyən edən amil deyil, eyni zamanda sosial institutların effektiv fəaliyyətini, ictimai ahəngdarlığı və kollektiv əməkdaşlığı təmin edən mühüm mexanizm kimi çıxış edir.

Məqalə çərçivəsində sosial ünsiyyət mədəniyyətinin nəzəri əsasları, struktur komponentləri və funksional xüsusiyyətləri sistemli şəkildə araşdırılıb. Müəyyən edilib ki, verbal və qeyri-verbal ünsiyyət, dinləmə mədəniyyəti, empatiya və emosional intellekt kimi komponentlər qarşılıqlı əlaqədə fəaliyyət göstərərək effektiv kommunikasiya mühitinin formalaşmasına xidmət edir [1]. Eyni zamanda bu komponentlərin hər hansı birinin zəif inkişafı sosial münasibətlərdə tarazlığın pozulmasına və anlaşılmazlıqlara səbəb ola bilər.

Müasir dövrdə baş verən rəqəmsallaşma və qloballaşma prosesləri sosial ünsiyyət mədəniyyətinə yeni məzmun və formalar qazandırıb. Rəqəmsal kommunikasiya imkanları ünsiyyətin sürətini və əlçatanlığını artırsa da, onun dərinliyi, etik çərçivələri və emosional komponentləri baxımından yeni çağırışlar yaradır [18]. Bu isə sosial ünsiyyət mədəniyyətinin ənənəvi prinsiplərlə yanaşı, rəqəmsal və interkultural kompetensiyalar əsasında yenidən formalaşdırılmasını zəruri edir.

Qonaqpərvərlik kontekstində aparılan təhlil isə göstərir ki, sosial ünsiyyət mədəniyyəti yalnız nəzəri konstruksiya deyil, gündəlik həyatın konkret sosial praktikalarında öz əksini tapan real davranış sistemidir. Qonaq və ev sahibi arasında qurulan münasibətlər, süfrə arxasında formalaşan kommunikativ mühit və qarşılıqlı hörmət prinsipləri sosial ünsiyyətin tətbiqi modelini aydın şəkildə nümayiş etdirir. Ervinq Qoffmanın qeyd etdiyi kimi, fərdlər gündəlik həyatın bu cür sosial "səhnələrində" öz daxili mədəniyyətlərini davranışları vasitəsilə nümayiş etdirirlər [5].

Eyni zamanda sosial ünsiyyət mədəniyyətinin inkişafı çoxşaxəli və davamlı proses kimi qiymətləndirilməlidir. Bu prosesdə təhsil sistemi, ailə mühiti, media və fərdi səylər qarşılıqlı şəkildə fəaliyyət göstərməlidir. Xüsusilə müasir dövrdə rəqəmsal savadlılıq, etik məsuliyyət və mədəni həssaslıq kimi keyfiyyətlərin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri kimi çıxış edir.

Nəticə etibarilə, sosial ünsiyyət mədəniyyəti yalnız fərdi bacarıq deyil, həm də ictimai dəyər və strateji resurs kimi qəbul edilməlidir. Onun sistemli şəkildə inkişaf etdirilməsi cəmiyyət daxilində etimadın möhkəmlənməsinə, sosial münasibətlərin ahəngdarlığına və ümumilikdə sosial rifahın yüksəlməsinə mühüm töhfə verir [8].

Ədəbiyyat:

1. Adler R. B., Rodman G. Understanding human communication. – Oxford: Oxford University Press, 2011.
2. Blau P. M. Exchange and power in social life. – New York: Wiley, 1964.
3. Castells M. The rise of the network society. – Oxford: Wiley-Blackwell, 2010.
4. DeVito J. A. The interpersonal communication book. – Boston: Pearson, 2015.
5. Goffman E. The presentation of self in everyday life. – New York: Anchor Books, 1959.
6. Goleman D. Emotional intelligence: why it can matter more than IQ. – New York: Bantam Books, 1995.
7. Gudykunst W. B. Cross-cultural and intercultural communication. – Thousand Oaks: Sage Publications, 2003.
8. Habermas J. The theory of communicative action. – Boston: Beacon Press, 1984.
9. Hall E. T. Beyond culture. – New York: Anchor Books, 1976.
10. Hargie O. Skilled interpersonal communication: research, theory and practice. – London: Routledge, 2011.
11. Homans G. C. Social behavior: its elementary forms. – New York: Harcourt, Brace & World, 1961.
12. Horn S. Tongue Fu!: how to deflect, disarm, and defuse any verbal conflict. – New York: St. Martin's Griffin, 1996.
13. Littlejohn S. W., Foss K. A. Encyclopedia of communication theory. – Thousand Oaks: Sage Publications, 2009.
14. Mead G. H. Mind, self, and society. – Chicago: University of Chicago Press, 1934.
15. Rosenberg M. B. Nonviolent communication: a language of life. – Encinitas: Puddledancer Press, 2015.
16. Samovar L. A., Porter R. E., McDaniel E. R. Intercultural communication: a reader. – Boston: Wadsworth Publishing, 2010.
17. Selçuk Z. Kırk kere söyledim: ailede huzurlu iletişim. – İstanbul: Kronik Kitap, 2022.
18. Turkle S. Alone together: why we expect more from technology and less from each other. – New York: Basic Books, 2011.
19. Mehrabian A. Silent messages. – Belmont (California): Wadsworth, 1971.
20. Delia J. G. Constructivism and the study of human communication // Quarterly Journal of Speech. – 1977. – C. 63, № 1. – S. 66–83. – DOI: https://doi.org/10.1080/00335637709383368